www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-18 (1801) 31 oktyabr 2024-cü il

ATU ilə BDU arasında memorandum imzalanıb

Sənəd mühüm sahələr üzrə birgə əməkdaşlığı nəzərdə tutur

səh. 2

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Badr Universitetinin prezidenti ilə görüşüb

səh. 2

Tədqiqatçı tələbəmizin layihəsi diplom və qızıl medala layiq görülüb

səh. 4

Elmi işlər yüksək impakt faktorlu jurnallarda dərc edilib

səh.7

Xalq artisti Fidan Hacıyeva və tələbələri ATU-nun səhnəsində

Konsert proqramı universitetimizin professor-müəllim heyəti və tələbələrin alqışları ilə qarşılanıb

səh. 3

Zəfər Gününə həsr olunmuş yarışların qalibləri mükafatlandırılıb

İdmanın müxtəlif növləri üzrə yarışlar ənənəvi olaraq hər il keçirilir

səh. 3

Tələbə, rezident və gənc həkim-stomatoloqlar üçün dəyərli mənbə

Ortopedik stomatologiya kafedrasında "Ortopedik stomatologiya. Çıxmayan protezlər" dərsliyinin təqdimatı keçirilib

səh. 2

Tibb Universitetindən gələcəyə açılan qapı

Prezident təqaüdçülərimiz ilk hədəfə çatdıqlarını, indi isə yaxşı həkim olmaq üçün var qüvvələri ilə çalışacaqlarını deyirlər

səh.5

ATU ilə BDU arasında memorandum imzalanıb

Sənəd mühüm sahələr üzrə birgə əməkdaşlığı nəzərdə tutur

Azərbaycan Tibb Universiteti (ATU) ilə Bakı Dövlət Universiteti (BDU) arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Memorandumu ATU-nun rektoru, professor Gəray Gəraybəyli və BDU-nun rektoru Elçin Babayev imzalayıb.

İmzalanma mərasimində çıxış edən BDU-nun rektoru E.Babayev qeyd edib ki, hər iki universitet yüksək səviyyədə əməkdaşlıq etmək, birgə tədqiqatlar aparmaq üçün kifayət qədər elmi, kadr potensialına, infrastruktura sahibdir: "Hər iki universitetin əsas qayəsi ölkəmizin inkişafına töhfə verməkdir. 1919-cu ildə BDU fəaliyyətə başlayanda onun ilk fakültələri məhz Tarix-filologiya və Tibb fakültələri olub. Məhz həmin Tibb fakültəsinin bazasında yaranan Azərbaycan Tibb Universiteti hazırda yüksək sürətlə inkişaf edir, yeniliklərə imza atır. Bu əməkdaşlıq çərçivəsində tətbiq xarakterli müxtəlif elmi tədqiqatlar həyata keçiriləcək. Bununla yanaşı, yeni nəsil elmi cihazlardan birgə istifadə, professor-müəllim heyətinin hər iki universitetdə tədris prosesinə cəlb olunması da nəzərdə tutulur".

ATU-nun rektoru G.Gəraybəyli memorandumun imzalanmasının hər iki universitetin, o cümlədən tədqiq edilən elm sahələrinin inkişafına və əhalinin rifahına xidmət edəcəyini deyib. Bildirib ki, tibb elmi dünyada ən sürətlə inkişaf edən sahələrdəndir. Xüsusilə nanotexnologiya, biotexnologiya, genetik tədqiqatlar, tibbi biologiya, əczaçılıq, dərman preparatlarının hazırlanması, gigiyena, qida təhlükəsizliyi kimi sahələr bu memorandumun əsas fəaliyyət predmeti olacaq.

Qeyd edək ki, memorandum hər iki universitetin elmi-tədqiqat imkanlarını genişləndirmək, regional və qlobal səviyyədə təsir gücünü artırmaq, multidissiplinar tədqiqatlar və innovasiyalar vasitəsilə yeni elmi nəticələr əldə etmək, tədris proqramlarını yeniləmək, tibb və biomühəndislik sahələrində birgə elmi nailiyyətləri praktiki sahəyə tətbiq etmək, texnologiyaların transferi ilə yeni məhsul və xidmətlər yaratmaq, tələbə və müəllim mübadiləsi proqramları, təlim və təcrübəkeçmə vasitəsilə insan kapitalının inkişafına töhfə vermək, biologiya və tibb sahələrində yeni araşdırmalar aparmaq, əhalinin sağlamlığını qorumaq üçün sosial layihələr həyata keçirmək və səhiyyə sahəsində müasir yanaşmaları təşviq etmək məqsədi daşıyır.

ATU və BDU tibbi-bioloji elmlər, biotexnologiya, biotibbi materiallar, nanotexnologiyalar və digər sahələrdə birgə tədqiqatlar və layihələr həyata keçirəcək, tələbələr və akademik heyət üçün mübadilə proqramları təşkil edəcək, təhsilalanların təcrübə mübadiləsi və staj keçməsi üçün şərait yaradacaqlar. Memorandumda iki ali məktəbin tədris proqramlarının yenilənməsi və təkmilləşdirilməsi, yeni ixtisas və fənlərin inkişafı, tibb və təbiət elmləri üzrə müasir təhsil metodlarının tətbiqi, tibbi-bioloji elmlər sahəsində beynəlxalq və regional səviyyəli birgə elmi tədbirlərin təşkil olunması da nəzərdə tutulur. Tibb və biomühəndislik sahələrində innovativ həllərin elmi-tədqiqat və sənaye sahələrinə transferi üzrə birgə işlərin aparılması, müasir laboratoriyalar və tədqiqat mərkəzlərinin yaradılması, hər iki universitetin elmi potensialının birləşdirilməsi də memorandumun məqsədləri sırasındadır. Hər iki universitet ictimai səhiyyə, tibbi profilaktika, əhalinin sağlamlıq problemləri ilə bağlı maarifləndirici tədbirlər keçirəcək, biotibbi materiallar, gen mühəndisliyi və biomexanika üzrə innovativ tədqiqatları təşviq edəcəklər. ATU-nun tibbi infrastrukturu və klinik bazalarından istifadə etməklə BDU-da aparılan bioloji və tibbi tədqiqatların klinik səviyyədə sınaqdan keçirilməsi, yeni dərman vasitələrinin hazırlanması, test edilməsi və onların kommersiyalaşdırılması üçün birgə tədqiqatların aparılması, farmakologiya və biotexnologiya sahələrində yeniliklərin tətbiq olunması da nəzərdə tutulur.

Tərəflər, həmçinin insan sağlamlığına təsir edən ekoloji amillərin tədqiqi, qida təhlükəsizliyi, təbii resursların idarə olunması, ekoloji tibb, bioetika üzrə birgə layihələr həyata keçirəcəklər.

Misirin Qahirə şəhərində yerləşən Badr Universitetinin prezidenti, professor Ashraf M.El Shihy və beynəlxalq əlaqələr üzrə prezidentin müşaviri, professor Hanan Mounib Azərbaycan Tibb Universitetinin qonağı olublar.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli Badr Universitetinin prezidenti ilə görüşüb

Qonaqları salamlayan rektor, professor Gəray Gəraybəyli onlara Azərbaycan Tibb Universitetinin tarixi, keçdiyi inkişaf yolu, müasir dövrdəki fəaliyyəti, ölkəmizin təhsil sistemində tutduğu yer haqqında ətraflı məlumat verib. Elmi tədqiqatlar sahəsində əldə olunan nailiyyətlərdən danışan rektor G.Gəraybəyli universitet əməkdaşlarının araşdırmalarının nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunduğunu, ATU-nun dünyanın aparıcı tibbi təhsil və elm mərkəzləri ilə əməkdaşlığının genişlənməsinə böyük diqqət verildiyini vurğulayıb.

Professor Ashraf M.El Shihy dəvət üçün təşəkkürünü bildirərək, rəhbərlik etdiyi təhsil ocağı haqqında məlumat verib, burada 16 min tələbənin beynəlxalq standartlar əsasında təhsil aldığını bildirib. Qazanılmış uğurlardan bəhs edən rektor, Badr Universitetinin də digər ölkələrin elm ocaqları ilə əməkdaşlığı gücləndirmək niyyətində olduğunu, bu baxımdan ATU-nun fəaliyyətini böyük maraqla izlədiklərini diqqətə çatdırıb.

Daha sonra tərəflər gələcək əməkdaşlığın perspektivləri və ortaq layihələrlə bağlı müzakirələr aparıblar.

Tələbə, rezident və gənc həkim-stomatoloqlar üçün dəyərli mənbə

Ortopedik stomatologiya kafedrasında "Ortopedik stomatologiya. Çıxmayan protezlər" dərsliyinin təqdimatı keçirilib

ATU-nun Tədris işləri üzrə prorektoru, Ortopedik stomatologiya kafedrasının müdiri, professor Nazim Pənahov və kafedranın assistenti Elmar Babayevin müəllifliyi ilə işıq üzü görən "Ortopedik stomatologiya. Çıxmayan protezlər" kitabının təqdimatı olub. Tədbir iştirakçıları əvvəlcə torpaqlarımızın azadlığı uğrunda şəhid olan qəhrəmanların və həmçinin ötən müddət ərzində dünyasını dəyişən bütün əməkdaşların ruhunu da bir dəqiqəlik sükutla yad ediblər.

Təqdimat mərasimini açan professor Nazim Pənahov bildirib ki, nəşr edilən yeni kitabların kafedrada təqdimatını keçirmək artıq ənənə halını alıb. Onun sözlərinə görə, bu dəfəki təqdimatın özəlliyi ondadır ki, çox gözəl vaxta, qələbəmizin ildönümü günlərinə təsadüf edir: "İlk öncə qeyd etmək istərdim ki, bu kitab Azərbaycan dilində çap olunan ilk dərslikdir. Mən hələ Ortopedik stomatologiya kafedrasının müdiri seçilərkən ilk verdiyim söz yeni proqrama uyğun olaraq kafedranı ehtiyac duyulan dərslik və dərs vəsaitləri ilə təchiz etməklə bağlı idi. Allaha çox şükürlər olsun ki, sözümüzə əməl edə bildik. Kitab kafedramızda "Diş tacının protezləri" və "Diş sırasının çıxmayan protezləri" fənlərinin tədris proqramına uyğun olaraq, Stomatologiya fakültəsinin tələbələrinə diş tacının müxtəlif qüsurlarında çıxmayan protezləmənin xüsusiyyətlərini aşılamaq məqsədilə yazılıb".

N.Pənahov vurğulayıb ki, bu dərslik ölkəmizdə Ortopedik stomatologiyanın inkişafının müasir mərhələsini özündə ehtiva edir və dünya standartlarına uyğun tərzdə hazırlanıb: "Nəzərinizə çatdırım ki, bu kitaba qədər "Ortopedik stomatologiya. Dişlərin morfologiyası və oyma texnikası" (N.A.Pənahov, H.H.Musayeva; 2019), "Ortopedik stomatologiya. Propedevtika" (N.A.Pənahov, S.İ.Əhmədov; 2020), "Ortopedik stomatologiya. İmplantüstü protezlər" (N.A.Pənahov, R.A.Hüseynli; 2021) dərsliklərimiz çap olunub. Bu yeni dərsliyimizin də Ortopedik stomatologiya predmetinin uyğun bölmələrinin mənimsənilməsində lazımi bir mənbəyə çevriləcəyinə ümid edirik. Bu kitabımı böyük məmnuniyyətlə həyatda, təbabətdə və elmdə məni hər zaman dəstəkləyən, sağlığında olduğu kimi, bu gün də ruhu ilə uğurlarıma ən yüksək səmimiyyətlə

sevinən əziz ata və anamın timsalında bütün dünyasını dəyişən valideynlərə ithaf edirəm".

Bundan sonra xalq şairi Fikrət Qocanın şeirinə Sevil Əliyevanın bəstələmiş olduğu "Ana" mahnısı səsləndirilib.

Daha sonra kitabın fəsilləri, bölmələri haqda ətraflı məlumat verən professor N.Pənahov, dərsliyin hazırlanmasında əsərlərindən, bilik və zəngin təcrübələrindən bəhrələndikləri yerli və xarici həmkarlarına minnətdarlığını bildirib. O, yeni dərsliyin tələbələr, rezidentlər, həmçinin dental implantologiya ilə məşğul olmaq arzusunda olan gənc həkim-stomatoloqlar üçün masaüstü kitaba çevriləcəyinə əminliyini ifadə edib. Kitabın digər müəllifi Elmar Babayev məlumat verib ki, dərslik ön sözdən və 20 fəsildən ibarətdir.

Yüksək səviyyədə nəşr edilən dərslikdə hər fəslin məzmununa uyğun rəngli şəkillər öz əksini tapıb. O, dərsliyin illüstrativ materiallarla zəngin olmasının tələbələrə bu fənləri daha asanlıqla mənimsəməyə yardım edəcəyini söyləyib.

Kitabın dəyərli bir mənbə olduğunu qeyd edən ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Mahir Səfərov, Stomatoloji Klinikanın direktoru İmran Ağayev, professor Rəna Əliyeva, Əsaslı Kitabxananın direktoru Ziyafət Eminova və başqaları çıxışlarında müəlliflərin əməyini yüksək qiymətləndiriblər. Natiqlər nəfis tərtibatla çap olunan dərsliyin ortopedik stomatologiyanın müvafiq bölmələrinin öyrənilməsində mühüm bir mənbə olacağını vurğulayıblar.

Xatırladaq ki, ATU-nun Böyük Elmi Şurasının qərarı ilə dərslik kimi təsdiq edilən kitabın rəyçiləri ATU-nun Uşaq stomatologiyası kafedrasının müdiri, Azərbaycan Stomatoloji Assosiasiyasının prezidenti, professor Rəna Əliyeva, Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Periodontologiya kafedrasının müdiri, professor Afət Ağazadə, elmi redaktoru isə ATU-nun Ortopedik stomatologiya kafedrasının mərhum professoru Zöhrab Qarayevdir.

Yüksək peşəkarlıqla hazırlanan bu dərslik ali tibb təhsili müəssisələrinin Stomatologiya fakültəsinin tələbələri, rezidentlər və gənc həkim-stomatoloqlar üçün nəzərdə tutulub.

Xalq artisti Fidan Hacıyeva və tələbələri ATU-nun səhnəsində

Konsert proqramı universitetimizin professor-müəllim heyəti və tələbələrin alqışları ilə qarşılanıb

Oktyabrın 24-də ATU-nun böyük akt zalında Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, hamımızın sevimlisi Fidan Hacıyeva və onun yaratdığı Fidan Hacıyeva Vokal Musiqi Məktəbinin nəzdində Opera Teatrının solistləri geniş konsert proqramı ilə çıxış ediblər.

İlk söz Fidan Hacıyevaya verilib və o, professor-müəllim heyətinin, tələbələrin alqış sədaları altında Üzeyir Hacıbəylinin "Sevgili canan" əsərini səsləndirib.

Konsertin aparıcısı – ATU-nun II Müalicə-profilaktika fakültəsinin IV kurs tələbəsi Nigar Babayeva həyatda ən böyük arzusu vokal musiqi məktəbi yaratmaq olan xalq artistinin 2016-cı ildə öz istəyini reallaşdırdığını tamaşaçıların diqqətinə çatdırıb. Artıq istedadlı gənclərimizə dəstək olmaq və Azərbaycan musiqisini bütün dünyada təbliğ etmək arzusu uğurla həyata keçən sənətçi öz tələbəsi Emin İsmayılovla səhnəyə dəvət olunub. Onların ifasında Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından "Gülçöhrə və Əsgərin dueti" tamaşaçılara zövqlü anlar yaşadıb.

Yeni musiqi nömrəsinə keçiddən öncə xalq artisti F.Hacıyevanın təkcə Azərbaycan musiqisini dünyaya tanıtmaqla kifayətlənmədiyi, hansı ölkədə olmasından asılı olmayaraq, 30 ildə xalqımızın başına gələn faciələri ictimailəşdirdiyi, yeni yaradılmış Fidan Hacıyeva Vokal Musiqi Məktəbinin ilk konsertinin də məhz 2017-ci ilin fevralında Xocalı soyqırımına həsr olunduğu vurğulanıb. Sevimli sənətçinin vətənpərvərliyi və vətənpərvər gənclərimizin yetişməsindəki rolu bir daha xatırladıldıqdan sonra söz yenidən musiqiyə verilib. Vokal musiqi məktəbinin üzvləri Emin İsmayılov və Orxan Cabbarov Tofiq Quliyevin "Sənə də qalmaz", Emin, Orxan, Altun və Asim isə "Dörd dost", eləcə də Rauf Məmmədzadə Müslüm Maqomayevin "Mavi əbədilik" mahnılarını xüsusi məharətlə ifa edərək tamaşaçıların alqışları ilə qarşılanıblar.

Beləcə, Fidan Hacıyeva Vokal Musiqi Məktəbinin üzvlərinin bənzərsiz ifaları ilə rəngarəng musiqi nömrələri bir-birini əvəz edib: "Arşın mal alan" operettasından "Popuri", "Telli və Vəlinin dueti", "Nazəndə Sevgilim" (Andrey Babayev), "Tarantella" (Coakkino Rossini), italyan mahnıları – "Popuri" və "Brindisi" (Cüzeppe Verdi).

Xalq artisti F.Hacıyeva dəfələrlə Türkiyənin Mersin, İstanbul, İzmir, Ankara teatrlarının səhnəsində yaratdığı "Karmen" obrazını Azərbaycan Tibb Universitetinin səhnəsində də canlandırıb.

Anşlaqla keçən konsert Fidan Hacıyeva Vokal Musiqi Məktəbinin nəzdində Opera Teatrının solistləri və xalq artistinin özü tərəfindən "Azərbaycan" mahnısının möhtəşəm ifası ilə sona çatıb və tamaşaçılar da onlara qoşulub.

Bu səmimi ortamda səhnəyə qalxan universitetin rektoru, professor Gəray Gəraybəyli öz adından və professor-müəllim heyəti, tələbələr adından Fidan xanıma və onun yaratdığı məktəbin üzvlərinə təşəkkürünü bildirib. Xalq artistinin ölkəmiz, xalqımız qarşısında xidmətlərini yüksək qiymətləndirən rektor, onun Tibb Universiteti ilə dostluğunun davamlı olacağına, hətta nə vaxtsa istedadlı tələbələrimizlə müştərək konsert verəcəyinə əminliyini ifadə edib.

Oktyabrın 30-da Yeni Klinikada COP29 çərçivəsində tibbi xidmətlərin təşkilinə həsr olunmuş brifinq və mediatur keçirilib. Səhiyyə nazirinin müavini, ATU-nun Təcili tibb kafedrasının müdiri Nadir Zeynalov, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov, tabeli tibb müəssisələrinin rəhbər heyəti, eləcə də media nümayəndələri və ictimai xadimlərin iştirakı ilə keçirilən brifinqdə tibbi xidmətlərin təşkili ilə bağlı ətraflı məlumatlar təqdim olunub.

COP29 çərçivəsində tibbi xidmətlərin təşkili ilə bağlı brifinq və mediatur keçirilib

Tədbirdə çıxış edən nazir müavini Nadir Zeynalov COP29 tədbiri günlərində tibbi xidmətin yüksək səviyyədə təşkil olunması üçün bütün səhiyyə qurumlarının koordinasiyalı şəkildə fəaliyyət göstərdiyini bildirib: "Əminəm ki, bu missiyanın öhdəsindən uğurla gələcəyik. Həm TƏBİB-in, həm Səhiyyə Nazirliyinin tabeli tibb müəssisələri, həm də özəl xəstəxanalar olmaqla toplam 9 xəstəxanada tibbi xidmətin təşkili üçün işlər görülüb.

10 minlərlə qonağın şəhərimizə gələcəyini nəzərə alaraq, mümkün təcili hallarla əlaqədar müalicə tədbirləri ilə yanaşı, profilaktika istiqamətində də işlər görülüb. Gələn şəxslər arasında epidemik xəstəlik daşıyıcıları da ola bilər. Bunun üçün Heydər Əliyev Beynəlxalq Hava Limanında termometrlər quraşdırılacaq ki, ilkin mərhələdə hərarət ölçülsün. Daha detallı müayinə üçün zəruri diaqnostik testlərlə də təmin olunmuşuq. Şübhəli vəziyyət olarsa, həmin şəxslər təcrid olunaraq müalicəyə cəlb ediləcək".

N.Zeynalovun sözlərinə görə, hazırda poliklinikalarda qrip əleyhinə peyvəndlənmə də davam etdirilir ki, bu da COP29 tədbirində xidmət edəcək vətəndaşlarımız arasında qrip xəstəliklərinin ağırlaşmalarının və yayılmasının qarşısının alınmasına kömək edəcək. Mehmanxanalarda, ictimai iaşə obyektlərində də epidemik xəstəliklərin yayılmasının qarşısını almaq üçün dezinfeksiya işləri aparılacaq.

Sonda TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov geniş təqdimatla çıxış edərək həm xəstəxanalarda tibbi xidmətin təşkilindən, həm də təcili tibbi yardım briqadalarının təhkim olunduğu ərazilərdən bəhs edib.

Brifinqdə media nümayəndələrinin sualları cavablandırılıb. Daha sonra Yeni Klinikada yaradılan şəraitlə əyani tanışlıq baş tutub, eləcə də tədbir üçün ayrılan ambulanslara baxış keçirilib.

"İndiki əczaçı sadəcə bir dərman mütəxəssisi deyil"

Respublika əczaçılarının 5-ci ümumrespublika konfransı keçirilib

Bu günlərdə "Əczaçılar Klubu" İctimai Birliyinin təşkilatçılığı ilə Beynəlxalq Əczaçı Gününə həsr edilmiş Respublika əczaçılarının 5-ci ümumrespublika konfransı keçirilib. Tədbirdə dövlət qurumlarının səlahiyyətli nümayəndələri, özəl sektorun aparıcı şirkətləri, həmçinin əczaçılar, həkimlər və tələbələr iştirak edib.

Universitetimizin Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva və Əczaçılıq kimyası kafedrasının müdiri, professor Tahir Süleymanov, eləcə də fakültə əməkdaşları və tələbələr konfransda iştirak ediblər.

"Əczaçılar Klubu"nun sədri Şövqi Bunyatov rəhbəri olduğu təşkilatın fəaliyyəti haqqında məlumat verib. Sonra çıxış edənlər əczaçılıq peşəsi haqqında fikirlərini bölüşüblər.

Dosent Fərəh Mədətli çıxışında bildirib ki, bu gün əczaçılıq təkcə dərmanlar haqqında elm deyil, həm də milyonlarla insanın həyat keyfiyyətini qoruyub saxlamağa və yaxşılaşdırmağa kömək edən tiblə xəstə arasında əsas körpüdür.

"O, dəqiq elmləri, innovativ texnologiyaları və insan orqanizmini dərindən dərk etməyi özündə birləşdirir. Fərdi tibbə ehtiyacın artdığı bir dünyada əczaçılıq kimya, biotexnologiya və rəqəmsal texnologiyanın qovuşduğu sahəyə çevrilir. Biz molekulyar kəşflər və genetik olaraq uyğunlaşdırılmış (adaptasiya olunmuş) dərmanların inkişafı dövründə yaşayırıq. Dərmanlar artıq universal həll deyil - onlar fərdiləşir, müəyyən bir xəstə üçün yaradılır. Bu, inqilabdır və bu inqilabın mərkəzində əczaçılar dayanır. İndiki əczaçı sadəcə bir dərman mütəxəssisi deyil. O, genomika, bioinformatika və hətta süni intellekt üzrə mütəxəssis olmalıdır", - deyə əməkdaşımız vurğulayıb.

Sonda F.Mədətli "Əczaçılar Klubu"nun təsisçilərinə, tədbirin iştirakçılarına və əczaçı tələbələrə bu şərəfli işdə uğurlar arzulayıb.

Zəfər Gününə həsr olunmuş yarışların qalibləri mükafatlandırılıb

Oktyabrın 30-da Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində Baki şəhər Gənclər və İdman İdarəsi və ATU-nun "Təbib" idman klubunun birgə təşkilatçılığı ilə idmanın müxtəlif növləri üzrə Zəfər Gününə həsr edilmiş yarışların qaliblərini mükafatlandırma mərasimi keçirilib.

Tədbirdə Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri Rauf İsgəndərov və Emin Hüseynov, Bakı şəhər Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Sirac Axundov, Bakı Şəhər Gənclər və İdman İdarəsinin Nəsimi rayonu üzrə gənclər və idman sektorunun müdiri Yusif Babanlı, ATU-nun Tərbiyə işləri üzrə prorektoru Mahir Səfərov, Əcnəbi təhsilalanlarla iş üzrə dekan Natiq Bayramov, məşqçi-müəllimlər və tələbələr iştirak ediblər.

Əvvəlcə Dövlət Himnimiz səsləndirilib və torpaqlarımızn işğaldan azad edilməsi uğrunda öz həyatlarını qurban vermiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Bundan sonra çıxış edən ATU-nun "Təbib" İdman Klubunun sədri Qələndər Aslanov şanlı qələbəmizə həsr olunmuş bu yarışların artıq ənənəvi olaraq hər il keçirildiyini diqqətə çatdırıb. Bu il ölkəmizin beynəlxalq COP29 tədbirinə ev sahibliyi etməsi ilə əlaqədar yarışların bir qədər tez başlamasına baxmayaraq, səmərəli olduğunu bildirib. Eyni zamanda yarışlara əcnəbi tələbələrin qatılmasının idman nailiyyətlərimizin xarici ölkələrdə təbliği baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Mükafatlandırma mərasimində ATU-nun Tərbiyə işləri üzrə prorektoru Mahir Səfərov, Nəsimi rayon İH-nin ictimai-siyasi, humanitar məsələlər şöbəsinin müdir müavini Rauf İsgəndərov və Bakı Şəhər GİI-nin Nəsimi rayonu üzrə gənclər və idman sektorunun müdiri Yusif Babanlı da çıxış edərək ölkəmizin dünyada idman ölkəsi kimi tanındığını söyləyiblər. ATU tələbələrinin idman sahəsindəki uğurlarından da söz açan natiqlər, burada idman yarışları üçün hər cür şəraitin yaradıldığını bildiriblər. Bunu ilk növbədə ATU rəhbərliyinin qayğısı və "Təbib" idman klubunun fəaliyyətinin göstəricisi kimi qiymətləndirərək, yüksək səviyyədə təşkil olunmuş yarışların fərdi və komanda qaliblərinə uğurlar arzulayıblar.

Tədbirin sonunda idmanın şahmat, badminton növləri üzrə fərdi qaydada I, II və III yeri tutan tələbələrə diplomlar və medallar təqdim olunub. Futzal üzrə komanda yarışında isə Stomatologiya fakültəsinin komandası I, Hərbi tibb fakültəsinin komandası II və II Müalicə-profilakitikası fakültəsinin komandası III yerə layiq görülüb, qalib komandalar kuboklarla mükafatlandırılıb.

Bariatrik cərrahlarımız beynəlxalq konqreslərdən qayıdıb

Azərbaycan Tibb Universitetinin I Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, t.ü.f.d., Azərbaycan Bariatrik Metabolik Cərrahlar Assosiasiyasının sədri Taryel Ömərov oktyabrın 11-12-də Orta Asiya dövlətlərinin Özbəkistanda keçirilən 2-ci Beynəlxalq Bariatrik Metobalik Cərrahi Konfransında ekspert qismində iştirak edib.

Orta Asiya dövlətləri də daxil olmaqla 12-dən çox dövlətdən, o cümlədən Çin, Hindistan və Türkiyədən dəvət olunmuş professorların qatıldığı konfransın beynəlxalq panelində həm də moderator kimi təmsil olunan universitetimizin əməkdaşı ilk növbədə rəsmi dəvətə görə professor Oktyabr Teşayevə və onun bütün komanda üzvlərinə təşəkkürünü bildirib. Onun qonaq məruzəçi olaraq revizional cərrahi əməliyyatların perspektivlərinə dair praktiki çıxışı da konfrans iştirakçıları tərəfindən böyük maraqla qarşılanıb.

Mədəkiçiltmə əməliyyatları və revizional cərrahiyyədə təkrar mədəkiçiltmə əməliyyatlarının nəticələrindən danışan mütəxəssisin sözlərinə görə, təkrar bariatrik cərrahi əməliyyatlar günümüzdə olduqca aktualdır: "Çünki dünyada revizional cərrahiyyənin statistikası artıq 14 faizə çatıb. Bu o deməkdir ki, əməliyyat olunmuş hər 100 xəstədən 14-ü 3-6 il ərzində hər hansı bir səbəbdən təkrar əməliyyatlara məruz qala bilir".

Məhz bu nöqteyi-nəzərdən təkrar əməliyyatlarla bağlı ölkəmizdə apardıqları təcrübəni bölüşən T.Ömərov qeyd edib ki, 11 ildir bariatrik cərrahiyə ilə məşğuldur və artıq 6-cı ildir ki, təkrar əməliyyatlar aparır. Müxtəlif tibbi mərkəzlərdən, hətta xarici ölkələrdən ona müraciət edən və əməliyyatdan sonra səhhəti tamamilə normallaşan pasiyentlər var.

Yeri gəlmişkən, milli bariatrik cərrahlarımız oktyabrın 17-20-də 9-cu Piylənmə və Metabolik Xəstəliklər Cərrahiyyə Konqresi və 4-cü Metabolik və Bariatrik Cərrahiyyə Dərnəyinin Konqresində də təmsil olunublar. Azərbaycan Bariatrik Metabolik Cərrahlar Assosiasiyasının sədri Taryel Ömərov açılış çıxışı edərək iştirakçıları salamlayıb və Azərbaycanda bariatrik cərrahiyyənin uğurla inkişaf etdiyini diqqətə çatdırıb. Türkiyənin Bariatrik Cərrahiyyə Cəmiyyətinin direktoru, professor Mustafa Taşkın, konqresin prezidenti Halit Eren Taşkın və konqresin həmsədri Nihal Zekiye Erdemin hər zaman onlara dəstək verdiyini minnətdarlıq hissi ilə vurğulayıb.

Hər iki konqres tədqiqatçılara, həkimlərə, səhiyyə mütəxəssislərinə, ictimai səhiyyə ekspertlərinə və cərrahlara plenar sessiyalar, şifahi təqdimatlar və video-sessiyalar vasitəsilə əsas mövzuları müzakirə etmək imkanı yaradıb.

Nobel mükafatına layiq görülmüş tədqiqat müzakirəyə çıxarılıb

Bioloji kimya kafedarasında "Fiziologiya və Tibb üzrə Nobel mükafatları -Mikro RNT" mövzusunda seminar keçirilib.

Kafedra müdiri, professor Gülnarə Əzizova son dörd il ərzində dünyada Fiziologiya və Tibb üzrə Nobel mükafatı alan alimlərin tərcümeyi-halı və elmi kəşfləri barədə qısa məlumat verib. Əlavə edib ki, 2021-ci ilin Nobel mükafatı David Julius və Ardem Patapoutiana dad, təmas və termo reseptorlarının öyrənilməsi sahəsindəki işlərinə görə verilib: "Bu alimlər tərəfindən TRPV1, TRPV8 kimi reseptorların işləmə prinsipi, zülal tərkibi öyrənilib. Məlum olub ki, kapsaisin adlı alkoloid (acı bibərdə olan) həm də temperatura həssas reseptordur. Mentola həssas reseptor həm də aşağı temperatura həssas reseptordur. Bu nəticələr tibdə anesteziologiya sahəsində geniş tətbiq oluna bilər.

2022-ci ildə İsveç alimi Svante Paabo insana bənzər meymunlarla insanlar arasında gen səviyyəsində fərq və oxşarlıqların araşdırılmasına görə, 2023-cü ildə Katalin Kariko və Drew Weissman Covid19-a qarşı mRNT tərkibli effektiv vaksinin kəşfinə və təklif etdikləri mRNT texnologiyalarına görə bu mükafata layiq görülüblər. Bu il isə Nobel mükafatı mikroRNT-lər (miRNA) və onların gen ekspressiyalarının tənzimlənməsində rolu və alınan nəticələrin onkologiyada istifadəsinə görə verilib".

Sonra kafedranın baş laborantı Humay Həsənova mikroRNT-lərin formalaşması haqqında geniş məlumat verib. Qeyd edib ki, mikroRNT 21-23 nukleotiddən ibarət kiçik, tək zəncirli, kodlaşdırılmayan RNT molekullarıdır. Hüceyrələr zülal sintezinin ilk mərhələlərinə bənzəyən bir prosesdən istifadə edərək mikroRNT-ni yaradır.

Mövzuya dair video-təqdimatdan sonra geniş diskussiyalar aparılıb. Kafedranın dosenti Akif Hacıyev və baş müəllim Hikmət Məmmədov mövzu ətrafında fikirlərini bölüşərək, bu il Nobel mükafatına layiq görülən işin çox sanballı bir tədqiqat olduğunu söyləyiblər.

İstanbulda 6-cı Beynəlxalq Böyrək Nəqli Kursu təşkil olunub

Türkiyə Orqan Nəqli Vəqfi tərəfindən 6-cı Beynəlxalq Böyrək Nəqli Kursu 23-26 oktyabr tarixlərində İstanbulda keçirilib.

I Cərrahiyyə kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının Transplantologiya şöbəsinin müdiri Anar Namazov və həmin kafedranın baş laborantı Elvin İsazadə tədbirdə iştirak ediblər.

Avropa Orqan Transplantasiyası Cəmiyyəti (ESOT) və Səhiyyə işçiləri üçün davamlı təhsilin akkreditasiyası üzrə Avropa Şurası (EBAC) tərəfindən təsdiq edilmiş bu hərtərəfli kurs böyrək transplantasiyası üzrə ən son texnologiyaları əhatə edib.

Böyrək Nəqli Kursu çərçivəsində dünya şöhrətli alimlər çıxış edib, əməliyyatlar canlı yayımla izlənilib, yeniliklər təqdim olunub. Bu tədbir ekspertlər arasında bilik və təcrübə mübadiləsi, tibbin aktual problemlərinin müzakirəsi üçün beynəlxalq platforma rolunu oynayıb.

Tədqiqatçı tələbəmizin layihəsi diplom və qızıl medala layiq görülüb

Oktyabrın 9-11-də Azərbaycan Tibb Universitetində Avrasiya Uşaq Həkimlərinin XI beynəlxalq konqresi keçirilib. Özbəkistan, Qırğızıstan, Türkmənistan və Çindən professor, həkim və bir çox tibb tələbələrinin qatıldığı konqresin 2-ci günündə "Gənc alimlər və tibb tələbələrinin elmi tədqiqat və startap işləri" panelində tibb tələbələri öz araşdırmalarını təqdim ediblər.

ATU-nun II MPF fakültəsinin IV kurs tələbəsi və universitetin Tələbə Elmi Cəmiyyətinin sədri Həmid Səfərli "Healthy kids" adlı startap layihəsini uğurla təqdim edərək I yerə layiq görülüb, diplom və qızıl medalla təltif olunub.

"Healthy kids" startap layihəsi məktəblilərin dayaq-hərəkət aparatını qorumaqda onlara kömək edir, valideynlərə övladlarının sağlamlığına onlayn mobil tətbiq vasitəsilə nəzarət etmək imkanı yaradır. Eyni zamanda "Healthy kids" mobil tətbiqi məktəblilərin fiziki və psixi inkişafı üçün özündə bir çox xüsusiyyətləri birləşdirən, valideynlərin güvənə və övladlarına nəzarət edə biləcəyi bir tətbiq olaraq dizayn edilib.

Layihənin əsas məqsədi uşaqların mobil cihazlardan səmərəli istifadə etməsinə zəmin yaratmaq və övladlarını sağlam böyütmək üçün valideynlərə dəstək olmaqdır.

Qeyd edək ki, bu mobil tətbiqin məktəblilər, valideynlər, müəllimlər, həkimlər və tibb tələbələri olmaqla ümumilikdə 5 fərqli hədəf kütləsi var. "Healthy kids" tətbiqinin ilkin olaraq 4 dildə (Azərbaycan, türk, ingilis, rus) hazırlanması və sonradan daha çox dil seçiminin əlavə edilməsi nəzərdə tutulub.

2024-cü ilin sentyabr ayında İstanbulda keçirilən Türk Dövlətlərinin I Tıbb Konqresində (2-ci Forum) uğurla təqdim olunan "Healthy kids" startap layihəsi orada da öz aktuallığı ilə diqqəti özünə cəlb edə bilib.

"Healthy kids" layihəsi tibb elmləri doktoru, ATU TEC-in elmi rəhbəri Müşfiq Həsənov və PhD İbrahim Sivrikayanın rəhbərliyi, dosent Ayət Cəfərovanın moderatorluğu ilə Həmid Səfərli, Leyla Səfərli, Səbinə Həsənzadə və Zeynəb Əlizadənin birgə komanda fəaliyyəti nəticəsində ərsəyə gəlib.

Layihə hazırda demo versiyada hazırlanır. 2025-ci ilin yanvarından etibarən isə "Health kids" tətbiqinin Azərbaycanda tam ödənişsiz olaraq istifadəyə verilməsi planlaşdırılır. Daha sonra isə layihə beynəlxalq bazara təqdim ediləcək.

Xəbər verdiyimiz kimi, ATU-nun fakültələrində startap təlimlərinə start verilib. İctimai səhiyyə və Əczaçılıq fakültələrinin tələbələri üçün "Startaplara giriş" mövzusunda təlimdən sonra daha bir təlim baş tutub.

İctimai səhiyyə və Əczaçılıq fakültələrinin tələbələrinə təlimlər keçilib

Bu dəfəki təlim müxtəlif sahələrdə yeni startapların yaranmasına və inkişaf etməsinə dəstək olan İnnovasiya Mərkəzi – SABAH.HUB-ın komanda üzvü, inkubasiya üzrə rəhbəri Camal Rzayev tərəfindən aparılıb. "Startapın maliyyə aspektləri, biznes üçün maliyyələşmə və investor tapılması" mövzusunda tələbələrə təlim keçən mütəxəssis, tələbələrə biznes üçün maliyyə resurslarının, eləcə də investorların necə tapılması yollarından danışıb. Eyni zamanda investorların layihələrə cəlb edilməsində fərdi təşəbbüslərin, ideya təqdimatı hazırlamağın xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Təlim zamanı fəallıqları ilə seçilən tələbələr öz startap ideyalarını moderatorla bölüşüblər.

Oktyabrın 22-də isə adıçəkilən fakültələrdə "MVP-nin (Minimum Viable Product) və İnteraktiv İnkişafın Yaradılmasının Əhəmiyyəti" mövzusunda təlim keçirilib.

Təlimin spikeri, SABAH.studio-nun meneceri Şahruz Həsənli minimum həcmli məhsul anlayışının tətbiqi və interaktiv inkişaf metodlarının əhəmiyyəti barədə təlim iştirakçılarına ətraflı məlumat verib.

Təlim tələbələrin geniş marağına səbəb olub.

Qeyd edək ki, oktyabrın 4-də başlayan startap təlimləri ayın 29-da sona çatıb. Bu təlimlər tələbələrin startap ekosistemində uğur qazanmağa kömək edəcək məlumatları əldə etməsinə və onlarda innovativ düşüncə tərzinin inkişafına imkan yaradıb.

Tibb Universitetindən gələcəyə açılan qapı

Prezident təqaüdçülərimiz ilk hədəfə çatdıqlarını, indi isə yaxşı həkim olmaq üçün var qüvvələri ilə çalışacaqlarını deyirlər

Oktyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncama əsasən, 2024-2025-ci tədris ilində ölkəmizin ali məktəblərinə daxil olan 102 tələbəyə Prezident təqaüdü təyin olundu. Onlardan 25-i Azərbaycan Tibb Universitetinin tələbəsi adını qazanıb. Prezident təqaüdçülərinin bir neçəsi ilə əlaqə saxlayıb fikirlərini öyrəndik.

Qeyd edək ki, bu il onların arasında ən yüksək bal (697) toplayan iki nəfər ATU-nu seçib. Onlardan Nuray Hüseynova Azərbaycan, Nəzrin Əhmədova isə ingilis bölməsində təhsil alacaq.

Nuray Hüseynova

2007-ci ildə Gəncə şəhərində anadan olub. Gəncə şəhər M.C.Paşayev adına 39 nömrəli tam orta məktəbi bitirib. 697 balla Azərbaycan Tibb Universitetinin II Müalicə-profilaktika fakültəsinə daxil olub. Nuray bildirir ki, həkim olmaq onun uşaqlıq arzusu imiş və məktəb illərində qazandığı uğurlar onda həkim olacağına böyük inam yaradıb: "Birinci sinifdən orta məktəbi bitirənədək əlaçı olmuşam. Dəfələrlə bilik yarışlarının, intellektual oyunların qalibi seçilmişəm.

Biologiya fənni üzrə Respublika Fənn Olimpiadasında bürünc medal qazanmış, məktəbi qızıl nişanla bitirmişəm. "Əlaçı", "Breyn-rinq" kimi televiziya verilişlərində yaddaqalan iştirakım olub. Məktəbi bitirdikdən sonra 697 bal toplayaraq 4-cü qrup üzrə respublika birincisi olmuşam. Bu məni olduqca çox sevindirir. Buna görə üzərimdə əziyyəti keçən müəllimlərimə təşəkkür edirəm".

Nuray asudə vaxtlarında pianoda ifa edir, mütaliəni də çox sevir. Pianoda Lüdviq Van Bethovenin məşhur "Für Elise" bəstəsini səsləndirir, Aqata Kristi, Artur Konan Doyl, Aleksandr Düma, Elxan Elatlı və başqalarının əsərlərini oxuyur.

Nəzrin Əhmədova

Nurayla eyni bal (697) toplayan Nəzrin Əhmədova 2006-cı il dekabrın 9-da Gəncədə anadan olub. 2013-cü ildə V.Veysəlov adına 30 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub. Oxuduğu müddətdə məktəbin ictimai həyatında fəal iştirak edib: "Dərslərimə həmişə hazırlıqlı olurdum, çalışırdım ki, bütün fənlərdən "5" qiymət alım. Alırdım da. Hətta ibtidai sinif müəlliməm Ayişə müəllimə məni "Testin anası" adlandırırdı. Kursların keçirdiyi sınaq imtahanlarında 1-2-ci yerləri tuturdum. Bütün fənləri yaxşı oxuyurdum və sevirdim. Yuxarı siniflərdə texniki fənlərə marağım daha çox olub. Olimpiadalarda da iştirak etmişəm. 9-cu sinfin buraxılış imtahanından 286 bal toplayaraq Fərqlənmə attestatına layiq görüldüm. OTK və MQM-in birgə keçirdiyi sınaqlarda yüksək nəticə əldə etdiyimə görə sertifikatlarla təltif olunmuşam.

11-ci sinfin buraxılış imtahanında ən yüksək nəticə əldə edərək 300, blok imtahanında isə 397 bal toplayaraq 4-cü qrup üzrə respublika birincisi oldum.

Uşaqlıqdan Azərbaycanın tanınmış, savadlı həkimlərindən biri olmağı arzulayırdım. ATU-nu seçərək bu yolda ilk addımımı atdım. Bu yolda valideynlərim və müəllimlərim məni dəstəkləyiblər. Onların mənə ümid bağlaması, inanması məni daha da həvəsləndirib. Sevincliyəm ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, Prezident təqaüdünə layiq görüldüm".

Nəzrin Əhmədova hazırda II Müalicə-profilaktika fakültəsinin 1-ci kursunda təhsil alır.

Səma Abbaslı

3 may 2006-cı ildə Şəki şəhərində anadan olub. 2013-cü ildə Şəki şəhər B.Vahabzadə adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub. 2024-ci ildə həmin məktəbi Fərqlənmə attestatı ilə bitirərək Azərbaycan Tibb Universitetinin I Müalicə-profilaktika fakültəsinə daxil olub: "Kiçik yaşlarımdan fəal olmuşam. Belə ki, 9 yaşımda "Kanal S" televiziya kanalının "Balacalar" verlişinin aparıcı olmuşam. Bir sıra bilik yarışlarında, intellektual oyunlarda sertifikat, fəxri fərmanlara layiq görülmüşəm. 6-cı sinifdə oxuyanda Şəkidə keçirilən debatda natiqlik üzrə 1-ci yerə çıxmışam".

Səma 2023-2024-cü tədris ilində ali məktəblərə qəbul imtahanında 692.6 bal toplayaraq IV qrup üzrə respublika 3-cüsü, Şəki 1-cisi olub, IV qrup blok imtahanında isə 398 bal yığaraq, ölkə üzrə ən yüksək nəticə göstərib: "Uşaq vaxtından ağxalatlı həkimlər xoşuma gəlirdi. Qohumlarımızdan həkimlərin olması bu peşəyə marağımı daha da artırırdı. Tibb Universitetinə qəbul olduğum üçün özümü xoşbəxt hiss edirəm. Savadlı kadr kimi yetişərək, həkim kimi vətənimizə layiqincə xidmət etmək istəyirəm. Arzum ürək-damar cərrahı olmaqdır".

Murad Məmmədli

29 mart 2007-ci ildə Sumqayıtda anadan olsa da, orta təhsilini Bakıda davam etdirib. Əvvəlcə Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən Fikrət Tağıyev adına 72 nömrəli məktəb-liseydə, sonra isə Nizami rayonunda yerləşən Kimya-biologiya təmayüllü respublika liseyində oxuyub. 2024-cü ildə liseyi Fərqlənmə attestatı ilə bitirib: "Həkim olmaq həvəsim bu liseydə oxuduğum zaman formalaşdı. Məktəbdə oxuduğum illərdə müxtəlif olimpiadalarda iştirak etmişəm. 2023-2024-cü ildə keçirilmiş Respublika Fənn Olimpiadalarında (RFO) biologiya fənni üzrə 2-ci yeri tutmuşam.

Bu il DİM imtahanlarında 690.9 bal toplayaraq ATU-nun I Müalicə-profilaktika fakültəsində təhsil alıram. Oftalmologiya üzrə cərrah olmaq istəyirəm. Asudə vaxtlarımda şahmatla məşğul oluram".

Orxan Abbasov

1 mart 2007-ci ildə Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. Bu kənddə 1 nömrəli tam orta məktəbi bitirib. 9-cu sinifdə buraxılışdan 273, 11-ci sinifdə 293.8, blok imtahanı üzrə isə 397 bal toplayıb.

Ümumilikdə 690.8 bal toplayan Orxan Abbasov orta məktəbdə seçilən şagirdlərdən olub və məktəblərarası müsabiqələrdə iştirak edib: "Respublika Fənn Olimpiadalarında biologiya üzrə final mərhələsinə vəsiqə qazanmışam. "Kenquru" beynəlxalq riyaziyyat müsabiqəsində 3-cü yer tutmuşam. Valideynlərimin meliorasiya və kitabxana sahəsində işləməsinə baxmayaraq, mən həkim olmaq qərarına gəldim. İstəyirəm insanların sağlamlığının keşiyində dayanam. Asudə vaxtlarımda şahmat oynamağı və fantastika janrında filmləri izləməyi xoşlayıram".

Aysu Ağakişiyeva

2007-ci ildə Bakıda anadan olub. 2013-cü ildə Binəqədi rayon 182 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub və bu il Fərqlənmə attestatı ilə bitirib. 683,1 bal toplayaraq II Müalicə-profilaktika fakültəsinə daxil olub: "Məni uşaqlıqdan həkim olmağa ailəm həvəsləndirib. Mən də məsuliyyətlə, gecə-gündüz çalışaraq, 11 illik əziyyətin sonunda öz hədəfimə çatmışam.

Çoxlu mütaliə edir, retro musiqilər dinləyirəm. Fantastik janrda olan kitablar oxuyuram. Universitet həyatı ürəyimcədir. Doğrudur, dərslərimiz çətindir. Amma bilirəm ki, çətinlik çəkmədən, yaxşı oxumadan savadlı həkim kimi yetişmək olmaz. Ona görə də hər cür çətinliyə qatlaşmaq lazımdır".

Elşən Yusibov

2007-ci ildə Qəbələ rayonunun Həmzəli kəndində anadan olub. 2024-cü ildə adıçəkilən kəndin tam orta məktəbini bitirib, 682.2 balla II Müalicə-profilaktika fakültəsinə daxil olub: "Tibb Universiteti uşaq vaxtımdan hədəfim olub. Həkim olmağımı ən çox nənəm istəyib. O məni ürək cərrahı kimi görmək istəyir. Ümid edirəm ki, nənəmin arzusunu reallaşdıra biləcəyəm".

Elşən həm də futbol həvəskarıdır. Yaxşı oxumaqla yanaşı, yaxşı futbol da oynayır. Kumiri Ronaldodur.

2019-cu ildə V Respublika fənn müsabiqəsində riyaziyyat fənni üzrə bürünc, 2022-2023-cü illərdə RFO-da kimya fənni üzrə bürünc, sonrakı il isə gümüş medal qazanıb.

Fuad Kərimov

2007-ci ildə Bakıda anadan olan F.Kərimov Masazır kənd 1 nömrəli tam orta məktəbi Fərqlənmə attestatı ilə bitirib: "Uşaq yaşlarımdan texniki fənlərə marağım olub. Ailəmizdə atam da stomatoloqdur. O, savadlı mütəxəssisdir. Onun öz peşəsinə necə məsuliyyətlə yanaşdığının şahidiyəm. Stomatoloq ixtisasını seçməyimdə atamın rolu danılmazdır. Çalışacağam ki, mən də atam Daşqın kimi bacarıqlı bir həkim olum. Cəhdlərimin özünü necə doğruldacağını isə zaman göstərəcək".

Qeyd edək ki, 677.7 bal toplayan Fuad bu il universitetimizin Stomatologiya fakültəsinin yeganə Prezident təqaüdçüsüdür.

Prezident təqaüdçüləri də daxil olmaqla, bu il ATU-nun tələbəsi adını qazanmış bütün gəncləri təbrik edir, onlara uğurlar arzulayırıq!

Qabil ABDULLAYEV

ATU-nun şəhid məzununun xatirəsi anılıb

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda öz həyatını qurban vermiş ATU-nun məzunu, hərbi həkim-feldşer, gizir Fariz Şıxəliyevin anım günü tədbiri keçirilib.

Hərbi tibb fakültəsinin təşəbbüsü ilə keçirilən tədbirdə fakültənin dekanı, tibb xidməti polkovniki Məharət Rzayev, tibb xidməti polkovnik-leytenantı Yaqub Qasımov, tibb xidməti polkovnik-leytenantı Rəşad Abdullayev, tibb xidməti mayoru Elxan Məmmədov, Tibbi mikrobiologiya kafedrasının müəllimi, İctimai səhiyyə fakültəsi həmkarlar təşkilatının sədri Səidə Hacıyeva və Hərbi tibb fakültəsinin Vətən müharibəsində şanlı döyüş yolu keçmiş məzunları iştirak ediblər. Tədbir iştirakçıları xüsusi təyinatlı dəstədə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan Fariz Şıxəliyevin ailə üzvləri ilə görüşüb və onlara ATU kollektivi adından rektor, professor Gəray Gəraybəylinin başsağlığını çatdırıblar.

Vətən müharibəsi şəhidinin Şamaxı rayonunun Şəhidlər xiyabanında yerləşən məzarı da ziyarət olunub.

Xatırladaq ki, şəhidin 4 yaşında Əli adlı bir oğlu yadigar qalıb.

Əməkdaşlarımız Vyanada elmi işlərini təqdim edib

Bu günlərdə ATU-nun I və II Uşaq xəstəlikləri kafedralarının bir qrup əməkdaşı Avstriyanın Vyana şəhərində keçirilən Avropa Pediatrlar Cəmiyyətinin 10-cu konqresində iştirak ediblər.

II Uşaq xəstəlikləri kafedrasının müdiri, professor Nailə Sultanova, əməkdaşlardan dosent Nurəngiz Hacıyeva, assistentlər Püstə Orucova, Afaq Axundova, Nərgiz Məmmədova və I Uşaq xəstəlikləri kafedrasının assistenti Nərgiz Şərifova 7 elmi tədqiqat işinin təqdimatını keçiriblər. Onların təqdim etdikləri mövzular maraqla qarşılanaraq müzakirəyə çıxarılıb.

Konqresin açılışında ilk öncə pediatrlara həsr edilmiş "Sənin üçün dünyanı xilas edəcəm" adlı himn səsləndirilib. Bundan sonra Ümumdünya Səhiyyə Təşkilatının Avropa Regionu üzrə Ölkə Səhiyyə Departamentinin direktoru N.Azzopardi-Muscat, Amerika Birləşmiş Ştatlarının (San Fransisko) UCSF-də Yenidoğulan Beyin Tədqiqat İnstitutunun və Neonatal Beyin Pozuntuları Laboratoriyasının direktoru, professor Donna M.Ferriero və başqalarının interaktiv məzmunlu çıxışları dinlənilib.

Dünyanın tanınmış pediatrlarının iştirak etdiyi dörd günlük konqresdə maraqlı, elmi yeniliklərlə zəngin, pediatriyada hər bir xəstəliyin müalicə prinsiplərində istifadə olunan yeni protokollara yanaşmalar da müzakirə predmeti olub.

Onu da qeyd edək ki, bu konqres pediatrlar arasında bilik və təcrübə mübadiləsi prosesində tibbin aktual problemlərinin müzakirəsi üçün beynəlxalq platforma rolunu oynayır.

Özbəkistan və Meksikada məruzələr oxunub

Oktyabrın əvvəllərində Özbəkistanın Daşkənd şəhərində IV Beynəlxalq Oftalmoloji Konqres keçirilib. Tədbirdə ATU-nu Oftalmologiya kafedrasının dosenti, t.e.d. Tural Qəlbinur təmsil edib.

O, bir plenar iclasın bölmə sədri olub, eləcə də "Müharibəyə bağlı göz zədələnmələri" mövzusunda və Türk Cümhuriyyətləri Oftalmoloji Cəmiyyətinin panelində moderator, "Pediatrik tor qişa qopmalarının cərrahi müalicəsi" mövzusunda dəvətli məruzəçi kimi çıxış edib.

Bu konfransın ardınca, 8-13 oktyabr tarixlərində T.Qəlbinur Meksika Retina Cəmiyyətinin xüsusi dəvəti ilə bu ölkənin Merida şəhərində keçirilən Beynəlxalq Retina Toplantısında 3 məruzə oxuyub. Onun "Retina qopmalarında silikon yağ və ya qaz tamponadasının effektliliyinin müqayisəli öyrənilməsi", "Gözdaxili yad cismlərin çıxarılmasl" və "Pediatrik retina qopmalarında cərrahi taktikanın seçilməsi" adlı məruzələri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Məqalələrimiz nüfuzlu beynəlxalq elmi jurnallarda

ATU-nun Elmi Araşdırmalar Mərkəzinin Tibbi kimya şöbəsinin əməkdaşları Xudayar Həsənov, Şimid Qasımov və Əsmət Əzizovanın 2024-cü ilin dördüncü rübünə qədər 22 elmi əsəri çapdan çıxıb.

Bu elmi əsərlərdən 12-si jurnal məqaləsidir və 11-i Q 1, Q 2, Q 3, Q 4 səviyyəli jurnallarda dərc olunub. Bu jurnalların sırasında neft-qaz sənayesi mütəxəssisləri, aspirantlar, tələbələr və elmi işçilər üçün nəzərdə tutulan "SOCAR Proceedings" və 2021-ci ilin sentyabr ayından "Scopus" beynəlxalq indeksləşmə bazasına daxil edilən "Chemical Problems" ("Kimya Problemləri") jurnalları da var.

Qeyd edək ki, ATU-nun Böyük Elmi Şurasında beynəlxalq nüfuzlu elmi bazalara daxil olan jurnallarda məqalələri dərc edilən müəlliflərə həvəsləndirici mükafatların ayrılması tövsiyə olunub.

Elmi-praktik konfransda təmsil olunmuşuq

ATU-nun Ümumi cərrahlıq kafedrasının professoru, tibb elmlər doktoru Novruz Hacıyev və həmin kafedranın dosenti, tibb elmlər doktoru Elman Tağısoy oktyabrın 8-dən 11-dək Özbəkistanın Xivə şəhərində Milli Elmi Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi tərəfindən keçirilən «Təxirəsalınmaz Tibbi Yardımın təşkilinin aktual problemləri» adlı XIX elmi-praktik konfransda məruzələrlə çıxış ediblər.

Professor N. Hacıyev oktyabrın 10-da konfransın panel iclasına sədrlik edib. O, həmçinin Milli Elmi Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi nəzdindəki Dissertasiya Şurasında keçirilən müdafiədə rəsmi opponent olub. Tədbirin sonunda hər iki alimimiz Azərbaycanla Özbəkistan arasında elmi əlaqələrin inkişaf etdirilməsində göstərdikləri xidmətlərə görə Fəxri Fərmanla təltif olunublar.

Toplantıda Azərbaycan nümayəndə heyəti tərəfindən hər iki ölkə prezidentlərinin rəsmi əks olunmuş xalça konfransın Təşkilat Komitəsinə hədiyyə edilib.

Hər il oktyabr ayının 24-də bütün dünyada insanların diqqəti poliomielitin qlobal səviyyədə aradan qaldırlmasının vacibliyinə yönəlir. Poliomielitə yoluxma halları, xəstəliyin simptomatikası və onunla mübarizə yolları barədə ATU-nun II Uşaq xəstəlikləri kafedrasının professoru, Elmi tədqiqatların idarə olunması departamentinin Elmimetrik araşdırma və elmi əməkdaşlıq şöbəsinin müdiri Fatimə Seyidbəyova məlumat verib.

İflic və ölümə səbəb olan ağır xəstəlik

30 ilə yaxındır ki, ölkəmizdə poliomielit xəstəliyi qeydə alınmır

O bildirib ki, Ümumdünya Poliomielitlə Mübarizə Gününün oktyabrın 24-ü seçilməsi heç də təsadüfi deyil. Belə ki, poliomielitə qarşı tapılan peyvəndin müəllifi, Amerika epidemioloqu və virusoloqu Conas Solkun doğum günü ilə əlaqəlidir: "Poliomielitə uşaqlarda rastgəlmə tezliyi dünya üzrə genişmiqyaslı peyvənd kampaniyaları səbəbindən son onillikdə xeyli azalıb. ÜST-ün məlumatına görə, hər 200-cü infeksiya halı geridönməz iflicə gətirib çıxarır. Həmin insanların 5-10%-də isə tənəffüs əzələlərinin iflici inkişaf edir ki, bu da ölümlə nəticələnir.

Poliomielit (poliovirus səbəbindən) kəskin yoluxucu viral xəstəlikdir və sinir sisteminə təsir göstərərək iflic, əzələ zəifliyi və ya ölümə səbəb ola bilər. Daha çox uşaqlarda müşahidə edilsə də, peyvənd olunmayan böyüklərdə də rast gəlinə bilər. Poliomielit, əsasən, qeyri-qənaətbəxş sanitariya şəraitində yaşayan cəmiyyətlərdə yayılmağa meyillidir.

Poliomielit tarix boyu ciddi sağlamlıq problemi olmuşdur. Lakin 1950-ci illərdə ilk peyvəndlərin inkişaf etdirilməsi bu xəstəliklə mübarizədə mühüm dönüş nöqtəsi oldu. Poliomielitə qarşı peyvəndlərin biri olan inaktiv poliovirus peyvəndi (İPV) amerikali alim Conas Solk tərəfindən 1955-ci ildə kəşf edildi. Bir neçə il sonra Albert Sabin tərəfindən hazırlanan oral poliomielit peyvəndi (OPV) daha geniş istifadə olundu və xəstəliyin qlobal miqyasında azalmasına böyük təsir göstərdi".



Poliomielitə yoluxma yollarından bəhs edən mütəxəssis vurğulayıb ki, poliovirus daha çox fekal-oral yolla yayılır. Virus nəcis vasitəsilə, çirklənmiş su və qida məhsulları ilə də keçə bilər: "Virusun insandan insana ötürülməsi də mümkündür. Xüsusilə sanitariya şəraitinin qeyri-qənaətbəxş olduğu ərazilərdə xəstəlik daha sürətlə yayılır. Virus əvvəlcə udlaq və bağırsaqlarda çoxalır, daha sonra orqanizmə yayılaraq qan dövranına daxil olur. Qanla sinir sisteminə çatan virus, sinir hüceyrələrini zədələyir və iflicə səbəb olur.

Xəstəliyin inkubasiya dövrü ortalama 9-12 gün çəkir. Amma 23-46 günə qədər uzana bilər. Ümumi KRVİ və ya bağırsaq infeksiyası kimi başlayan poliomielit geridönməz nəticələrə, iflicə və ölümə gətirib çıxara bilər.

Növü, şiddəti və gedişatından asılı olaraq poliomielitin bir neçə forması var. Poliomielit tipik (mərkəzi sinir sisteminin zədələnməsi ilə) və atipik (mərkəzi sinir sisteminə zərər vermədən) növlərə bölünür. Atipik növə 72% daha çox rast gəlinir və boğaz ağrısı, baş ağrısı, qusma, yüksək hərarət, yorğunluq kimi özünü göstərir və ya simptomsuz keçə bilər. Qeyd etmək lazımdır ki, atipik poliomielitlə olan uşaqlar infeksiyanın əsas mənbəyidirlər. Poliomielitin tipik növünün ilk simptomları atipik formadakına bənzəyir. Lakin bir həftədən sonra uşağın vəziyyəti ağırlaşır.

Reflekslərin itirilməsi, əzələlərdə şiddətli spazm və ağrılar, boş və sallanan əzələlər (bəzən bədənin bir tərəfində), bədən üzvlərinin (omba, topuq və ayaqlar) deformasiyası poliomielitin tipik növünün simptomlarıdır. Post Poliomielit Sindromu (PPS) xəstəlik tam sağalma ilə başa çatsa və ya asimptomatik olsa belə, 15-40 ildən sonra inkişaf edə bilər.

PPS-in simptomları proqressiv əzələ və oynaq zəifliyi, getdikcə ağrıların şiddətlənməsi, əzələ istifadəsi artdıqca ağrıların daha da artması, yorğunluq, əzələlərin atrofiyası, nəfəsalmada çətinlik, soyuğa və istiyə tolerantlığın aşağı olması, depressiya, diqqətin və yaddaşın pozulması və sairədir".

Xəstəliklə mübarizə yollarından danışan professor qeyd edib ki, poliomielitə qarşı ən effektiv vasitə peyvənddir: "İki əsas növ peyvənd istifadə olunur. İnaktiv poliovirus peyvəndi və oral poliovirus peyvəndi. İPV iynə vasitəsilə vurulur. Bu peyvənd bədəndə qan dövranında güclü immun cavab yaradır və poliovirusun sinir sistemini zədələməsinin qarşısını alır. OPV isə ağız vasitəsi ilə qəbul olunur və bağirsaqlarda lokal immunitet yaradır.

Uşaqların immunizasiyası üzrə təlimat Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və BMT-nin Uşaq Fondunun (UNİCEF) dəstəyi ilə Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən hazırlanıb və yeni peyvənd təqviminə əsasən 2, 3, 4 aylarda uşaqlara Heksavaksin (difteriya, göyöskürək, tetanus, hepatit B, B tipli hemofil infeksiya, poliomielit), 6 və 18 aylarda isə OPV verilir.

Azərbaycan Respublikası 1988-ci ildə ÜST, UNİSEF, Rotary İnternational beynəlxalq təşkilatları tərəfindən Qlobal Poliomielit Eradikasiya Təşəbbüsü (GPİE) adlı genişmiqyaslı proqrama qoşulub. Bu proqramın məqsədi poliomielit xəstəliyini dünya üzrə tamamilə aradan qaldırmaqdır.

1995-ci ildən sonra ölkəmizdə poliomielit xəstəliyi qeydə alınmayıb və 2002-ci ildən Azərbaycan poliomielitdən azad region statusu alib".

M.ƏLƏKBƏRLİ

Həmkarlar İttifaqı Komitəsi tələbələr üçün maraqlı seminar təşkil edib

Oktyabrın 25-də Azərbaycan Tibb Universiteti Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) dəstəyi ilə komitənin nəzdində fəaliyyət göstərən "Şəxsi inkişaf və psixoloji təlimlər" klubu ilk seminarını keçirib.

Klubun sədri, Hərbi tibb fakültəsinin 3-cü kurs tələbəsi Nəriman İskəndərov seminarın mövzusunun "Kütlə qarşısında qorxmadan danış" olduğunu iştirakçıların diqqətinə çatdırıb. Seminarı aparmaq üçün sözü Diksiya Akademiyası MMC-nin təsisçi-direktoru, jurnalist Cəlalə Nəzəroğluya verib.

Məruzəçi mövzunun aktuallığına toxunaraq, səsləndirdiyi məqamların tələbələrin gələcək karyerasında necə rol oynayacağını bildirib, kütlə qarşısında qorxmadan necə danışmağın sirlərini bölüşüb.

200-dən çox tələbə və müəllimin iştirak etdiyi tədbir çox maraqlı keçib. Natiq tələbələri maraqlandıran suallara ətraflı cavab verib. Müəllimlər isə belə tədbirlərin keçirilməsinin zəruriliyi və faydası barədə fikirlər səsləndiriblər.

Seminarın sonunda klubun sədri N.İskəndərov THİK-in rəhbəri Qoşqar İsmayılova dəstəyə görə təşəkkürünü bildirib və məruzəçiyə universitet adından hədiyyə verib.

Sağlamlıq üçün çalışmaq təkcə həyatın əsas ehtiyacı deyil, həm də sağlamlığın və uzunömürlülüyün əsas mənbəyidir. Bütün əmək növləri şərti olaraq yaradıcı fəaliyyətin üstünlük təşkil etdiyi fiziki və əqli əməyə bölünür. Bu da öz növbəsində mərkəzi sinir sisteminin və hər şeydən əvvəl insan beyninin tənzimləyici rolu olmadan həyata keçirilə bilməz. İş şəraiti insanların işə münasibətini əvvəlcədən müəyyən edən mühüm sosial amildir.

Sağlam bədən - sağlam ruh deməkdir

Və ya düzgün seçilmiş peşə müsbət emosiyaların tükənməz mənbəyidir

İş qabiliyyətinə təsir edən mühüm amillərdən biri insanın işə münasibətidir. İş qabiliyyəti - mürəkkəb və çoxşaxəli bir hadisədir; insanın müəyyən istehsal fəaliyyətini keyfiyyət və kəmiyyət normalarına uyğun olaraq uzun müddət yerinə yetirmək qabiliyyətini müəyyən edən, həmçinin daxili (fizioloji və psixoloji), xarici səbəblərdən, yaş, fiziki güc, dözümlülük, sağlamlıq vəziyyəti, təcrübə, şüur, iş şəraiti, iş rejimi və bir çox digər amillərdən asılıdır. Zehni əməyi fiziki əməklə və əksinə əvəz etmək çox vacibdir. Fiziki əmək və idman fəaliyyəti aktiv istirahətlə birlikdə iş qabiliyyətinin bərpasının ən yaxşı formasıdır.

İşdən narazılığın ümumi səbəblərindən biri də yanlış peşə seçimidir ki, bu da daimi mənbə kimi tez-tez mənfi emosiya hissinin yaranmasına səbəb olur. Düzgün seçilmiş peşə konkret bir insanın qabiliyyətinə ən uyğun olandır və bu səbəbdən də bütöv bir peşəyönümlü sistem yaradılmışdır. Məsləhət mərkəzləri, seçim kabinetləri, əmək təlimi və peşəyönümü üzrə tədris-istehsalat mərkəzləri gənclərə peşə seçimi ilə bağlı məsləhətlər almaqda kömək edir. Gənc yaşda düzgün peşə seçimi, yaxud yaşlı və səhhətində müəyyən problemi olan insanların işlə təmini uzunömürlülüyün ən vacib şərti olmaqla, onların əmək uğurlarından məmnunluğu kimi müsbət emosiyaların tükənməz mənbəyidir. İş, sağlamlıq və məhsuldarlıq əhval-ruhiyyə arasında mövcud olan sıx əlaqə kollektivdə əlverişli mənəvi mühitin və istehsal standartlarının təkmilləşdirilməsinin vacibliyindən xəbər verir.

Müxtəlif sənaye sahələrində yeni texnoloji proseslərin tətbiqi ilə əlaqədar müasir zehni əməyin bəzi xüsusiyyətlərini nəzərə almaq lazımdır. Çünki bu zaman əmək formalarının xüsusi çəkisi daim artır, fiziki qüvvənin payı azalır. Bu da orqanizmin zəifləməsinə - səhhətinin pisləşməsinə, müəyyən xəstəliklərin yaranmasına səbəb olur. Bu şəraitdə rasional iş və istirahət məsələləri daha da aktuallaşır.

Ərazi həkimləri, ictimai səhiyyənin işçiləri əmək şəraitinin yaxşılaşdırılmasında, peşə xəstəliklərinin və zəhərlənmələrin qarşısının alınmasında fəal iştirak edirlər. İlkin və dövri tibbi müayinələrin keçirilməsinə cavabdeh olan təşkilatların və əməyin mühafizəsi şöbələrinin iştirakı tələb edilir. Əməyin mühafizəsi məqsədilə işçilərin sağlamlığının qorunması və işçilər arasında gigiyenik biliklərin təbliği şərti ilə əmək məhsuldarlığını artırmaq üçün əməyin elmi təşkili şöbələri və laboratoriyaları xidmət göstərir. Əməyin mühafizəsi ilə bağlı İctimai Səhiyyə, Qızıl Xaç və Qızıl Aypara cəmiyyətlərinin fəalları tərəfindən də bir sıra işlər həyata keçirilir. İnsanın əmək fəaliyyəti daimi həyəcanlandırma və dayandırma prosesləri olmadan mümkün deyil. İşin ritmi müəyyən fasilələrlə təkrarlanır, iş hərəkətləri daha canlı və dəqiq olur. Ritmli iş məhsuldar və az yorucu olduğundan, sağlamlığı daha yaxşı qoruyur. İş həyatın ritmini yaradır və gündəlik rejimə riayət etməyə kömək edir. Fiziki əmək həzmə müsbət təsir göstərdiyindən, qarın əzələlərini gücləndirir, mədənin sekretor-hərəkət funksiyasını yaxşılaşdırır. Yəni, mədə şirəsinin ifrazı, bağırsaqların fəaliyyəti yaxşılaşır, iştah artır, qanın tərkibi və xassələri dəyişir. Bundan başqa, orqanizmdə əzələlərə oksigen və qida maddələrinin çatdırılması artır, maddələr mübadiləsi, eləcə də ürəyin və digər orqanların qanla təchizatı yaxşılaşır. Təmiz havada işləmək müalicəvi, şən, dinamik əhval-ruhiyyə yaradan müsbət emosiyaların mənbəyidir. Peşə terapiyası insan psixikasına faydalı təsir göstərir və böyük məmnunluq yaradır. Sağlamlığın əməklə möhkəmləndirilməsi üçün vacib olan şərt iş və istirahətin düzgün planlaşdırılması, habelə bəzi iş formalarının başqaları ilə əvəz edilməsidir.

Tədqiqatçılar göstərir ki, gərgin zehni iş 2 saatdan çox çəkmədikdə məhsuldar olur və buna görə də 1-2 saatlıq işdə 10 dəqiqəlik fasilə vermək lazımdır. İş günü ərzində ən yaxşı istirahət forması iş yerində bədən tərbiyəsi və gimnastika hesab olunur. Düzgün yuxu iş qabiliyyətinin bərpasında və sağlamlığın qorunmasında mühüm rol oynayır. Belə ki, düzgün yuxudan sonra insan özünü şən və enerjili hiss edir.

Bu gün fəxrlə deyə bilərik ki, universitetimizin idman zallarında, yaşıllıqlarla əhatə olunmuş ərazisində, tədris və klinika binalarında, həmçinin Nabranda yerləşən "Təbib" sağlamlıq və istirahət düşərgəsində əməksevər kollektivimizin səmərəli fəaliyyət göstərməsi və istirahəti üçün əlverişli şərait var. İnsan sağlamlığı naminə yeni əmək uğurlarını əldə etməyi və həyata keçirməyi bilavasitə qarşısına məqsəd qoyan universitet rəhbərliyi, həmkarlar ittifaqı, inzibati və təsərrüfat işçiləri alqışa layiqdirlər.

Ruxsara ƏLİYEVA
Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının professoru,
Cəmilə SALİHOVA
dosent

Elmi işlər yüksək impakt faktorlu jurnallarda dərc edilib

Universitetimizin əməkdaşları il ərzində fərqli məzmunlu elmi-tədqiqat işlərini davam etdiriblər. Bu araşdırmalar nəticəsində əldə olunan elmi yeniliklər yerli jurnallarla yanaşı, xarici ölkələrin nüfuzlu bazalarında (Web of Science, Scopus) indekslənən nəşrlərdə də çap olunur.

Elmi əsərləri xarici jurnallarda nəşr edilən alimlər arasında Sitologiya, embriologiya və histologiya kafedrasının müdiri, professor Eldar Qasımov, Elmi Araşdırmalar Mərkəzinin direktoru, dosent Orxan İsayev və həmin mərkəzin Elektron mikroskopiya şöbəsinin müdiri, dosent Fuad Rzayevin də adlarını qeyd etmək olar. Təkcə 2024-cü il ərzində tədqiqatçıların həmmüəlliflikləri ilə 20-dən artıq elmi əsər, o cümlədən 10 məqalə Web of Science və Scopus bazalarına daxil olan yüksək impakt faktorlu jurnallarda nəşr edilib. Həmin jurnalların Web of Science platformasında 2-si Q1, 7-si Q2 və 1-i isə Q3 (Quartile) səviyyəyə və 2.4-4.5 impakt faktora malikdirlər.

İri həcmli fundamental tədqiqatların aparılmasında ATU-nun alimləri ilə yanaşı, həm yerli (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Kataliz və Qeyri-Üzvi Kimya İnstitutu, UFAZ, Fizika İnstitutu, SDU, Radiasiya Problemləri İnstitutu), həm də xarici ölkələrin universitet və qurumlarının (Dalhousie Universiteti (Kanada), Manchester Metropolitan Universiteti (İngiltərə), Ege Universiteti (Türkiyə), Strasburq və Lorraine universitetləri (Fransa), İlia Dövlət Universiteti (Gürcüstan), İvane Beritashvili adına Eksperimental Biotibb Mərkəzi (Gürcüstan), New Vision Universiteti (Gürcüstan), Gazi Universiteti (Türkiyə), Metal və Texnologiya İnstitutu (Sloveniya)) alimləri yaxından iştirak ediblər.

Əsdi xəzan yeli, payız yetişdi

Artıq xeyli müddətdir ki, növbəti payız fəslini yaşayırıq. Məmləkətimiz Azərbaycanda fəsillər öz adı, öz rəngi ilə seçilir. Payız fəsli ədəbiyyatımızda "ömrün son illəri", "yaxınlaşan ayrılıq", "həsrət" və s. ifadələrlə assosiasiya olunur.

Payız Nizami şeirində "şux yarpaqları solan reyhan"dırsa:

Əsdi xəzan yeli, payız yetişdi
Bağların əhvalı tamam dəyişdi.
Töküldü reyhanın şux yarpaqları,
Arxlar kənarında otlar sapsarı.

Dədə Ələsgər dilində "dağların üstündəki calalı dağıdan"dır:

Yayın əvvəlində dönürsən xana,
Son ayda bənzərsən yetkin bostana.
Payızın zəhməri qoyur virana,
Dağıdır üstündən calalı dağlar!

Çoxlu misallar gətirmək olar. Və deyə də bilərik ki, Vətən müharibəsi, Zəfər, suverenliyimizin tam bərpası da payız aylarına təsadüf etdi. Maraqlı və həm də ziddiyyətli deyildirmi?!

Bəs görəsən bizim tibb aləmində payız necə görünür? Təbiətin bir parçası kimi yaranmış insanı fəsillərdən uzaq tutmaq düzgün olmazdı. Söhbət təxminən eynitipli, monoton hava ilə müşayiət olunan yay fəslindən sonra payızda meteoroloji amillərdə baş verən ciddi dəyişikliklərdən gedir. Bu fəsil günün uzunluğunun azalması, ətrafda temperaturun aşağı düşməsi, barometrik təzyiqin artması, rütubətin yüksəlməsinə gətirib çıxaran payız yağışları və s. ilə xarakterizə olunur. Bu fəsil, eləcə də orqanizm üçün vacib olan ultrabənövşəyi şüaların, D vitamini sintezinin azalması ilə də müşayiət edilir. Payız və qış fəsilləri virus infeksiyalarının tezliyinin artmasına səbəb olur. Bu zaman yuxarı tənəffüs orqanlarının virus zədələnmələrinə daha çox təsadüf olunur. El arasında "zökəm", "tumov", "qrip", "boğaz ağrısı" kimi tanınan yuxarı tənəffüs orqanlarının kataral iltihabı aşağıdakı simptomlarla üzə çıxır: üşütmə ilə gedən başağrıları, oynaq (artralgiya) və əzələ (mialgiya) ağrıları, burun axması (rinoreya), quru öskürək, ümumi zəiflik, iştahasızlıq. Tənəffüs yollarını zədələyən respirator viruslarla yanaşı, enteroviruslar da bu fəsildə aktivləşir. Enterovirusların aktivləşməsi, xüsusən uşaqlarda bədənin susuzlaşmasına səbəb ola biləcək qusma və ishallar, qarında ağrı ilə müşayiət olunur.

Yuxarı sadaladıqlarımla yanaşı, payız fəslində bir sıra revmatik xəstəliklərin – kəskin revmatik qızdırma, revmatoidli poliartrit, reaktiv artritlər (infeksiyaların fonunda) - ya kəskinləşməsi, ya da residivləri baş verir.

Adaptiv mexanizmlərin pozulduğu, adaptasiya imkanlarının məhdud olduğu xəstələrdə müəyyən patologiyalarda kəskinləşmələr meydana çıxır. Buraya onikibarmaq bağırsağın xora xəstəliyini, qeyri-spesifik xoralı koliti, sinusitləri (haymorit, frontit, rinit), ən ümdəsi isə "nevroz" adı ilə tanınan vegetativ distoniyaları aid etmək olar. "Ürək nevrozu" ürəkdöyünmələr, döş qəfəsində fiziki yükdən asılı olmayan atipik ağrılar, tərləmə, üşütmə və s. şəklində, "mədə nevrozu" əsasən hava gəyirmələri, boğazda sanki tikə qalması, hava çatışmazlığı və s., "bağırsaq nevrozu" isə (buna qıcıqlanmış bağırsaq sindromu da deyə bilərik), əsasən qəbizlik və ishalın növbələşməsi, köp, digər nevrotik pozğunluqlar şəklində özünü biruzə verir.

Payız biz həkimləri səfərbər edir. Səfərbər edir ki, adaptasiya imkanları problemli xəstələrə orqanizmin adaptiv imkanlarını yüksəldən preparatlar təyin edək, düzgün qidalanma, idman rejimlərinin seçilməsi məsələlərinə diqqət yetirək. Səfərbər edir ki, dispanserizasiya işlərini nizama salaq. Eləcə də ürəyin xronik revmatik xəstəliyi olan xəstələrə bitsillinoterapiya, onikibarmaq bağırsaq xorası olanlarda residiv əleyhinə - mədədə aqressiv amillərin azaldılmasına yönələn müalicə kursları tətbiq edək.

Payız təbiətin sakit dövrü olduğundan, melanxoliyaya – süstlüyə, depressiyaya, özünə qapılmağa meylli olan xəstələri və sağlam şəxsləri də ayrıca müşahidəyə almaq gərəkir.

Təbiət və insan arasındakı bağlar qırılmazdır. Bəlkə də ululARımız toyları, şənlikləri payıza salmaqla, onun neqativ təsirə malik səssizliyini, sükutunu pozmağı düşünüblər!

Nağdəli KEŞTƏKLİ
III Daxili xəstəliklər kafedrasının dosenti

Əməkdaşımız qardaş ölkədə akademik fəaliyyətdə olub

ATU-nun Rezidentura və magistratura şöbəsinin müdir müavini, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının baş müəllimi Əfsanə Məmmədova oktyabrın 14-dən 28-dək Türkiyə Cümhuriyyəti Atatürk Universitetində Orhun mübadilə proqramı çərçivəsində Farmasötik texnoloji kafedrasında akademik fəaliyyətdə olub.

O həmin müddətdə Atatürk Universitetinin Əczaçılıq fakültəsinin dekanı, professor Beyzagül Erkayman xanımla, müxtəlif kafedraların müdir və əməkdaşları, o cümlədən Sağlıq Bilimləri İnstitutunun müdiri, professor Abdulmecit Albayrakla görüşüb. Görüşlər zamanı ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib. Bu məsələ ilə bağlı Əfsanə xanım, həmçinin Atatürk Universiteti Doğu Anadolu Yüksək Texnoloji Uyğulama və Araşdırma Mərkəzi – DAYTAM-da olub, rəhbərliklə görüşərək ATU magistrantları və müəllimlərinin bu araşdırma mərkəzində çalışmaq şərtlərinə dair müzakirələr aparıb.

Gələcək iş fəaliyyəti üçün faydalı təcrübə

İctimai səhiyyə fakültəsinin təşəbbüsü ilə fakültənin 2020-ci il, həmçinin Menecment (səhiyyə sahəsi) ixtisası üzrə 2024-cü il məzunu Gülər Məhərrəmova sentyabrın 22-28-də Rusiya Federasiyasının Moskva şəhərində Rossotrudniçestvo "Yeni Nəsil" proqramı çərçivəsində "STİMUL" beynəlxalq məktəbində iştirak edib.

Məktəb bir sıra ölkələrdən qatılan gənc səhiyyə təşkilatçılarının kollaborasiyası üçün nəzərdə tutulub və Federal Dövlət Büdcə Təşkilatının Səhiyyənin Təşkili və İnformasiyalaşdırılması üzrə Mərkəzi Elmi-Tədqiqat İnstitutunun nəzdində fəaliyyət göstərir. Rusiya Səhiyyə Nazirliyinin tərkibində fəaliyyət göstərən bu təşkilat 2024-cü ildə Müstəqil Dövlətlər Birliyinin iştirakçı ölkələrinin ictimai sağlamlıq institutları və sağlamlıq informasiya şəbəkəsinin sədridir.

Məktəbin ümumi proqramı 5 gündən ibarət olub. İlk iki gün Rusiya Sosial Universitetinin rektorunun iştirakı ilə ümumi tanışlıq olub və açılış mərasimi keçirilib. Üçüncü gün isə Moskva vilayətinin iki böyük şəhər poliklinikası (Lyuberetskaya və Vidnovskaya) ilə tanışlıq olub. Son iki gün aktiv mühazirələrin dinlənilməsi, qrup işlərində layihələrin təqdimatı və sertifikatların verilməsi mərasimi ilə tamamlanıb.

Fakültəmizin məzunu məktəb proqramı çərçivəsində müasir dövrdə şəhər poliklinikalarının işinin necə təşkil olunması ilə bağlı yeni yanaşmalarla yaxından tanış olmaq imkanı əldə edib. Belə ki, həkim qəbuluna elektron qaydada yazılma, canlı növbələrin olmaması, klinikalara müraciət edən pasiyentlər haqqında vahid elektron sistemin mövcudluğu və teletibb-dən istifadə qaydaları kimi istiqamətlər əhatə olunub.

Belə proqramlar gənc kadrların gələcək iş fəaliyyəti üçün çox faydalıdır.

Tələbələrimiz Biruni Universitetində klinik təcrübə keçib

Azərbaycan Tibb Universitetinin Müalicə-profilaktika fakültəsinin tələbələri Günel Quliyeva və Aişə Abbaszadə "Erasmus K71" mübadilə proqramı çərçivəsində Türkiyənin Biruni Universitetinin xəstəxanasında iki ay müddətində klinik təcrübə keçiblər.

Tələbələrimiz müasir tibbin müxtəlif sahələrində yeni təcrübə qazanaraq, tanınmış həkim və professorlardan dəyərli biliklər öyrəniblər. Tələbələr, həmçinin Biruni Universitetinin müasir tibbi avadanlıqlarla təchiz olunmuş xəstəxanasında müxtəlif klinik tapşırıqları yerinə yetirərək, nəzəri biliklərini praktikada tətbiq etmək imkanları əldə ediblər.

ATU tələbələrinin beynəlxalq mübadilə proqramlarında iştirakı onların qlobal səviyyədə tibbi təcrübə qazanmasıvə müxtəlif ölkələrdən olan həmkarları ilə əməkdaşlıq etməsi baxımından təqdirəlayiqdir.

Ailə təbabəti kafedrası daha iki dərslik hazırlayıb

Bu il Ailə təbabəti kafedrasının əməkdaşları tərəfindən hazırlanan yeni dərsliklər haqqında məlumat vermişdik. Kafedradan daha iki yeni dərsliyin hazırlandığını bildiriblər.

Dərsliklərdən biri İ.İ.İsayev, A.P.Məmmədova, A.İ.Mustafayeva, R.Ə.Quliyev, Ş.A.Məmmədova, M.R.Abbasova və X.R.Axundovanın həmmüəllifliyi ilə işıq üzü görən "Ailə təbabətində tibb bacılığı" kitabıdır. Tibb bacısı işinin nəzəri və təcrübi əsaslarını özündə əks etdirən dərsliyin ayrı-ayrı fəsillərində tibb bacısı işinin təməl prinsipləri, sübuta əsaslanan tibb bacılığı, tibb bacısının etik və mənəvi dəyərləri öz əksini tapıb. Eyni zamanda ailə tibb bacısı tərəfindən xəstəliklərin erkən aşkarlanması, ilkin diaqnostika, müalicə prosedurları və manipulyasiyaları yerinə yetirmək qaydaları, ev və ambulator şəraitdə pasiyentlərə ilkin yardımın təşkili ətraflı və hərtərəfli izah olunub.

"Ailə təbabətində tibb bacılığı" kitabı tibb təhsili verən aparıcı universitetlərin tədris proqramları əsasında tərtib olunub, 20 fəsildən ibarətdir. Dərslik ali tibb bacılığı ixtisası üzrə təhsil alan tələbələr və bu istiqamətdə fəaliyyət göstərən mütəxəssislər üçün nəzərdə tutulub.

"Klinik müayinə üsulları" adlanan ikinci dərslik də tibb təhsili verən aparıcı universitetlərin tədris proqramları əsasında hazırlanıb. İ.İ.İsayev, R.İ.Qabulova, R.Ə.Rzayeva, A.İ.Mustafayeva və M.R.Abbasovanın birgə müəllifliyi ilə çap olunan dərslik 9 fəsildən ibarətdir. Tənəffüs, ürək-damar, həzm, sidik-ifrazat, qanyaradıcı, endokrin, sümük-oynaq və əzələ sistemi, eləcə də xəstəlik tarixinin tərtib olunma qaydasının öz əksini tapdığı dərslikdə xəstənin müayinəyə hazırlanması, müayinənin məqsədi, aparılma texnikası, norma və patoloji hallar zamanı nəticələrin qiymətləndirilməsinə də aydınlıq gətirilib. Xəstəlik tarixinin tərtib olunma fəslində subyektiv, obyektiv müayinə, əlavə müayinə üsullarının (instrumental, laborator) nəticələri, müalicə planı, ilkin diaqnoz, xəstəlik tarixinin gündəliyi, epikriz, xəstəlik tarixində xəstənin evə yazılması və ya ölüm haqqında yekun qeydlər ardıcıllıqla verilib.

Dərslik əsasən Tibb Universitetinin tələbələri, rezidentləri, həmçinin müxtəlif ixtisaslı gənc həkimlər üçün nəzərdə tutulub.

Ölkəmizdə yoluxucu xəstəliklərlə mübarizə, bu xəstəliklərin diaqnostikası və müalicəsini özünün əsas həyat yolu hesab edən mütəxəssislər sırasında yer tutan Azərbaycan Tibb Universitetinin Yoluxucu xəstəliklər kafedrasının dosenti Mirzamin Mirilyas oğlu Muxtarovun bu günlərdə 70 yaşı tamam olur.

Tələbkar müəllim, tanınmış həkim, vətənpərvər insan

M.Muxtarov 1954-cü ildə Sabirabad rayonunda anadan olub. 1972-78-ci illərdə Azərbaycan Tibb İnstitutunun Müalicə işi fakültəsinin tələbəsi olub və 1979-cu ildə internatura təhsili alıb. Təyinatla üç il Sabirabad rayonunda həkim-terapevt kimi fəaliyyət göstərib. 1983-cü ildə Bakıda 7 saylı Tibbi Sanitar Hissədə sahə terapevti işləyən M.Muxtarov 1984-87-ci illərdə ATU-da yoluxucu xəstəliklər üzrə əyani aspiranturada təhsil alıb. 1987-ci ildən ATU-nun Yoluxucu xəstəliklər kafedrasında assistent, 1994-cü ildən isə dosent vəzifəsində çalışır. 1993-cü ildə namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi alıb və 1987-ci ildən indiyədək həm də kafedrada elmi işlər üzrə müavindir.

O, 1993-2000-ci illərdə Səhiyyə Nazirliyinin yo-luxucu xəstəliklər üzrə Həkimlərin Attestasiya Komis-siyasının üzvü olub. Həmçinin uzun illər kafedrada test imtahan suallarının tərtibi üzrə ekspert qrupunun rəhbəri, eləcə də Tələbə Qəbulu üzrə Dövlət İmtahan Komissiyasında ekspert olaraq çalışıb. 1992-ci ildə Bakı şəhəri 1 saylı Klinik Xəstəxananın bazasında yerləşən İnfeksion mərkəzin rəhbərinin müavini və-zifəsində işləyib.

M.Muxtarov 1993-cü ildə kafedra tarixində ilk dəfə nəşr olunan böyük həcmli və çoxtirajlı yoluxucu xəstəliklər dərsliyinin həmmüəllifi, eyni zamanda elmi redaktoru və korrektoru olub. Dosent M.Muxtarovun elmi rəhbərliyi ilə dissertasiya işi müdafiə olunaraq fəl-səfə doktoru alimlik dərəcəsi alınıb. Mirzamin müəllim hazırda tələbələr və rezidentlərin elmi biliklərə, praktik vərdişlərə yiyələnməsi üçün məqsədyönlü fəaliyyətini davam etdirməkdədir.

O, 200-dən artıq elmi işin, o cümlədən iki dərslik və dərs vəsaitinin, üç tədris proqramının, Səhiyyə Nazirliyinin təsdiq etdiyi iki səmərələşdirici təklifin, doqquz metodik tövsiyə və göstərişin həmmüəlliflərindəndir. Problem Komissiyasının və Aprobasiya Şurasının üzvüdür. 2003-cü ildə "VEKTOR" Beynəlxalq Elm Mərkəzinin "XXI əsrin tanınmış həkimi" beynəlxalq diplomu ilə təltif edilib.

M.Muxtarov ATU-nun və Nəsimi rayon Ağsaqqallar Şurasının fəal üzvlərindən biri olmaqla, Azərbaycan İnfeksionistləri Elmi-Praktik Cəmiyyəti İdarə Heyətinin, Respublika Mikrobioloqlar və Hepatoloqlar cəmiyyətlərinin də üzvüdür.

Mirzamin müəllim gənc nəslin dövlətçilik, vətənpərvərlik ruhunda tərbiyəsinə həmişə böyük önəm verir. Onun vətənpərvərlik mövzusunda çap olunmuş "Qa-rabağ çağırır bizi", "Zəfər günü", "Azərbaycan ordusu", "20 Yanvar şəhidləri", "Ay Ulu Öndərim mənim", "Azər-baycan qüdrəti var!" və s. şeirləri oxucular tərəfindən rəğbətlə qarşılanıb.

Yoluxucu xəstəliklər kafedrasının kollektivi həmkarlarının və tələbələrin böyük sevgisini qazanan, yüksək pedaqoqluq məharəti və insani keyfiyyətlərə malik olan, ömrünün müdrik çağını yaşayan Mirzamin müəllimi 70 illik yubileyi münasibətilə təbrik edir və ona sağlıqlı uzun ömür, elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzulayır.

Yoluxucu xəstəliklər kafedrası əməkdaşları adından:

Cəlal İSAYEV
kafedranın müdiri, dosent

Düzəliş

"Təbib" qəzetinin 15.10.2024 tarixli, 17(1800) №li sayında dərc olunmuş ATU-da vakant yerlər üzrə müsabiqə elanında "Nevrologiya kafedrası - 1 yer (0,5 ştat vahidi) baş müəllim vəzifəsi" cümləsi "Nevrologiya kafedrası - 1 yer (0,5 ştat vahidi) assistent vəzifəsi" kimi oxunmalıdır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

"Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun "Təbib" nəşriyyatında çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0018
Sayı 800